*SƏNƏTŞÜNASLIQ VƏ MEMARLIQ*

**UOT:781.**

# DMİTRİ ŞOSTAKOVİÇİN FORTEPİANO YARADICILIĞI VƏ MƏKTƏBLİLƏRİN MUSİQİ TƏRBİYƏSİNDƏ İSTİFADƏNİN İMKAN VƏ YOLLARI

***Məhərrəmova Gültəkin Sabir qızı***
***Gəncə Dövlət Universiteti***
**maharramovagultekin@gmail.com.**

**Xülasə:** *Məqalə görkəmli rus bəstəkarı, pedaqoq, pianoçu və ictimai xadim D.Şostakoviçin fortepiano yaradıcılığına və məktəblilərin musiqi tərbiyəsində ondan istifadənin imkan və yollarının araşdırılmasına həsr olunub.*

*D.Şostakoviç həm öz xalqının, həm də dünya musiqi mədəniyyətinin ən yaxşı ənənələrinə əsaslanaraq müxtəlif janrlarda dəyərli sənət nümunələri yaratmışdır.*

*Məktəblilərin musiqi tərbiyəsində bəstəkarın fortepiano musiqisindən geniş istifadə edilməsi məktəblilərin musiqi tərbiyəsinə müsbət təsir göstərir, musiqi mədəniyyətini yüksəldir.*

**Açar sözlər:** bəstəkar, musiqi, yaradıcılıq, məktəb, musiqi tərbiyəsi.

**Ключевые слова:** композитор, музыка, творчество, школа, музыкальное воспитание.

**Key words**: composer, music, creativity, school, musical education.

XX əsr musiqi tarixinə dahi bəstəkar pianoçu və ictimai xadim kimi daxil olmuş D.Şostakoviçin (1906-1975) müxtəlif janrları əhatə edən və həcmcə geniş olan yaradıcılıq irsi XX əsrin klassikası sayılır.

Bəstəkarın zəngin yaradıcılıq irsinə simfonik, kamera-instrumental və vokal janrında yazılmış möhtəşəm əsərlər, kinofilmlərə və teatr tamaşalarına yazılan musiqi daxildir.

D.Şostakoviçin fortepiano yaradıcılığı dünya fortepiano mədəniyyətində özünəməxsus yer tutur. Bəstəkar S.Prokofyevin fortepiano yazı üslubunun ən gözəl ənənələrinə əsaslanaraq özünün fortepiano üslubunu yaratmışdır.

D.Şostakoviçin böyük və mürəkkəb inkişaf yolu keçən fortepiano yaradıcılığı onun estetik görüşlərinin inkişafı və dünyagörüşünün dəyişməsi ilə əlaqədardır.

D.Şostakoviç bəstəkar, həm də pianoçu kimi peşəkar ali təhsil almışdır. O, 1923-cü ildə Leninqrad konservatoriyasında L.V.Nikolayevin sinfini fortepiano, 1925-ci ildə isə M.O.Şteynberqin sinfini bəstəkarlıq üzrə bitirmişdir. Tələbəlik illərində S.Prokofyev üslubunun təsiri altında fortepiano üçün "Üç fantastik rəqs" əsərini yazmışdır. Bəstəkar 1926-cı ildə I fortepiano sonatasını, 1933-cü ildə I fortepiano konsertini yazmışdır. Hər iki əsərdə bəstəkarın həyat haqqında düçüncələri, fəlsəfi problemlər öz əksini tapmışdır.

Konservatoriyanı bitirdikdən sonra D.Şostakoviç pianoçu kimi solo konsertlərlə çıxış edir, konsertlərin proqramına klassik bəstəkarların əsərlərini daxil edirdi. 1927-ci ildə Varşavada Şopen adına I Beynəlxalq Müsabiqədə uğurla çıxış etmişdir.

Musiqi sənətinə peşəkar pianoçu kimi gəlmiş D.Şostakoviçin fortepiano yaradıcılığı rəngarəng janrlarla təmsil edilmişdir.

D.Şostakoviçin yaradıcılığında erkən, orta və son dövr (bəstəkarın yaradıcılığının son onilliyi) mərhələlərini qeyd etmək olar. Bu mərhələlərin xronoloji sərhədləri şərtidir.

Erkən mərhələyə 1925-ci ilədək yazılmış əsərlər daxildir. Bu əsərlər sırasına fortepiano üçün 3 fantastik rəqs, 2 fortepiano üçün süita daxildir. Bu əsərlərdə bəstəkarın yaşadığı dövrün məişət musiqisinin elementlərindən istifadə olunmuşdur.

Fortepiano sonatası (1926), "Aforizmlər" fortepiano pyesləri (1927) bəstəkar yaradıcılığının orta mərhələsinə aid etmək olar.

Bəstəkarın 7-ci simfoniyası (1941) 1941-45-ci il Böyük Vətən müharibəsinə həsr olunmuş musiqi abidəsidir. Bu illərdə yazılan fortepiano əsərlərindən fortepiano üçün kvintet (1940) bəstəkarın yaradıcılıq irsində mühüm yer tutur.

D.Şostakoviçin fortepiano yaradıcılığının zirvəsinə “24 prelüd və fuqa”, “Üç fantastik rəqs” (əsər 5), II fortepiano sonatası (əsər 6) əsasən də onun final hissəsi, I və II fortepiano konsertləri, uşaqlar üçün pyeslər daxildir.

Bu əsərlərdə bəstəkarın öz dövrünün ideya axını və psixoloji motivləri tərənnüm olunur. Burada D.Şostakoviçin yaradıcılığının əsas xüsusiyyəti insanın daxili aləminə daha dərindən nüfuz etməsi, öz əsərlərində bu psixoloji cəhətləri əks etdirməsidir.

D.Şostakoviçin fortepiano yaradıcılığında əsas yeri “24 prelüd və fuqa” tutur. Bu silsilə təkcə Şostakoviçin yaradıcılığında deyil, eyni zamanda XX əsrin ortalarında musiqi incəsənətində polifonik təfəkkürün zirvəsi sayılır.

Bəstəkarın “24 prelüd və fuqa”silsiləsi (əsər 87) İ.S.Baxın “Yaxşı Temperasiyalı Klavir” silsiləsi ilə müqayisədə polifonizmin inkişafında böyük bir mərhələ olmuşdur. Şostakoviç bu silsiləni 1950-1951-ci illərdə dahi bəstəkar İ.S.Baxın ölümünün 200 illiyinə həsr etmişdir. İ.S.Baxdan sonra iki yüzillik ərzində heç kim 24 tonallıqda prelüd və fuqa silsiləsini yaratmağa cəhd etməmişdir.

“Muzıka” nəşriyyatı tərəfindən 1972-ci ildə nəşr olunan “Советская музыкальная литература” (“Sovet musiqi ədəbiyyatı”) adlı dərslikdə qeyd olunduğu kimi, “Prelüdiya və fuqalar Şostakoviçin bəstəkar ustalığını təntənəsidir. Bu əsərlər bəstəkarın həyatı görüşlərinə həsr olunmuş düçüncələrdən ibarət bir “gündəlik”dir. Bu silsilə çoxsahəli obrazlı və emosional quruluşa malikdir: sakit, təntənəli do major prelüdiya və fuqası, hissiyatlı və fikirli mi minor pelüdiyası, düşüncələrin enerjisi si minor, dramatizm re minor prelüdiyasında, çox sayda obyektiv lövhələrin lirik görünüşləri – gəncliyin simvolu lya major fuqasında, ehtiraslı rəqs fa diyez minor prelüdiyasında, epik nağıl mi major prelüdiyasında əks olunmuşdur. Bu prelüd və fuqaların melodiyası rus mahnılarına yaxındır. Obrazı konkretləşdirən janr assosiasiyaları, fakturada səslənməyə rəngarənglik və tembr müxtəlifliyi aydın görünür” [5, s.331-332].

D.Şostakoviçin yaradıcılığının son mərhələsinə alt və fortepiano üçün yazılmış sonatasını qeyd etmək olar.

Bəstəkarın “Fortepiano trio”su görkəmli musiqi tənqidçisi İ.İ.Sollertinskinin xatirəsinə həsr olunmuşdur. Burada hüzn lirikası fəlsəfi masştaba qədər inkişaf edir: əsərdə həyat və ölüm haqqında daima sual qalxır, şər qüvvələrin qorxulu gəlişi özünəməxsus, “ölüm rəqsi” ilə tamamlanır.

D.Şostakoviçin yaradıcılığında ən yüksək nailiyyətlərdən biri “Fortepiano kvinteti”dir. Əsər 1940-cı ildə 2 skripka, alt, violonçel və fortepiano üçün yazılmışdır. Əsərin obraz və emosional məzmunu-insan idrakının gücü, onun düşüncələrinin dərinliyi, onu əhatə edən həyatın parlaq, bayram görünüşüdür.

Müxtəlif dövrlərin və xalqların musiqi xüsusiyyətlərini öyrənmək, onlardan sərbəst və məharətlə istifadə etmək bəstəkarın yaradıcılıq yolunu səciyyələndirir. D.Şostakoviçin fortepiano yaradıcılığının əsas xüsusiyyəti insanın daxili aləminə daha dərindən nüfuz etməsi, öz əsərlərində bu psixoloji cəhətləri əks etdirməsidir.

D.Şostakoviçin yaradıcılıq yolu həm musiqi təhsili sahəsində, həm də janr, kompozisiya sahəsində böyük ixtiralar etmiş əsl novator yolu olmuşdur. Janrından asılı olmayaraq bəstəkarın hər bir əsəri musiqi incəsənətinə böyük bir töhfədir.

Pedaqoji elmlər doktoru, professor M.Dadaşova “Musiqi müəlliminin hazırlığının metodikası” adlı dərs vəsaitində qeyd edir ki, bəstəkarın novatorluğu özünü musiqi janrlarının və formalarının traktovkasında, musiqi dilinin bütün elementlərində - intonasiyada, ladda, metr və ritmdə, harmoniyada, polifoniyada və s. göstərmişdi. Şostakoviç üslubunun əsas

xüsusiyyətlərindən birini “yüksək intelektuallıq və gərgin emosionallığın xüsusi birləşməsi təşkil edir” [1,s.81].

Məktəbliləri musiqi sənəti xəzinəsinə cəlb etmək, klassik musiqinin ən yaxşı nümunələri əsasında onların estetik zövqlərinin formalaşmasında fortepiano əsərlərinin rolu böyükdür. Bu baxımdan məktəblilərin musiqi tərbiyəsində D.Şostakoviçin fortepiano yaradıcılığından istifadə etmək üçün geniş imkanlar vardır.

Məktəblilər ümumtəhsil məktəblərində “Musiqi”dərslərində və musiqi dərnəklərində musiqiyə dair müəyyən bilik, bacarıq və vərdişlərə yiyələnməklə bərabər eyni zamanda mənəvi keyfiyyətlər qazanırlar.

Məktəblilərin musiqi zövqünün tərbiyə olunmasında, onların musiqi dünyagörüşünün formalaşmasında klassik bəstəkarların əsərlərinin böyük rolu vardır.

Kurikulum proqramı əsasında tərtib olunan “Musiqi” dərsliklərini nəzərdən keçirərkən görürük ki, burada “Musiqi dinləmə” bölümündə Azərbaycan bəstəkarlarının əsərləri ilə yanaşı Avropa və rus bəstəkarlarının əsərləri də daxil edilmişdir.

Çox təəsüf ki, “Musiqi” dərsliklərinin “Musiqi dinləmə” bölümünə XX əsrin klassiki dahi bəstəkar D.Şostakoviçin əsərləri xüsusilə də fortepiano əsərlərindən hissələr daxil edilməmişdir.

Tövsiyə edərdik ki, yeni dərsliklər hazırlanarkən bəstəkarın fortepiano əsərlərindən müəyyən parçalar “Musiqi” dərsliklərinə daxil edilsin.

Bəstəkarın əsərlərinin dinlənilməsi prosesində onun yaradıcılığını Azərbaycan mədəniyyəti ilə əlaqələndirən müəllim məktəblilərə məlumat verə bilər ki, görkəmli Azərbaycan bəstəkarları Qara Qarayev və Cövdət Hacıyev Dmitri Şostakoviçin tələbələri olmuşlar. Azərbaycan xalqının ümummilli lideri, ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1972-ci ildə D.Şostakoviç Bakıya dəvət olunmuş və Azərbaycan SSR Xalq artisti Fəxri adı ilə təltif edilmişdir.

Belə məlumatlar məktəblilərin musiqi inkişafı ilə yanaşı onlarda vətənpərvərlik, multikultural dəyərlərə hörmət hisslərini gücləndirir.

Elmi-pedaqoji ədəbiyyatın, pedaqoji təcrübənin öyrənilməsi göstərir ki, klassik musiqinin ən yaxşı nümunələri əsasında məktəblilərin estetik zövqlərinin formalaşmasında D.Şostakoviçin əsərlərinin rolu böyükdür. Bu baxımdan D.Şostakoviçin fortepiano pyeslərindən musiqi təlimi prosesində geniş istifadə edilməsi məqsədəuyğunudr. Məsələn, yuxarı sinif şagirdlərinin “Musiqi” dərslərində D.Şostakoviçin “24 prelüd və fuqa” silsiləsindən ən gözəl nümunələrin fortepiano pyeslərinin dinlənilməsi maraqla qarşılanar. Belə dərs prosesində musiqi dinlənilməsindən əvvəl müəllimin bəstəkarın həyat və yaradıcılığı haqqında məlumat verməsi məktəblilərin yaradıcı təxəyyülünü inkişaf etdirir, onların musiqi mədəniyyətini yüksəldir, müvafiq tematik gecələrdə məktəblilərin musiqi tərbiyəsinin səmərəli təşkilinə xidmət edir.

### *Ədəbiyyat*

1.Dadaşova M.“Musiqi müəlliminin hazırlığının metodikası”(dərs vəsaiti). Bakı, 2010, 255s.

**Rus dilində**:

2.История музыки народов СССР. “Советский композитор”. Москва, 1974, 580с.

Мазел Л. О стиле Шостаковича. Статьи по теории и анализу музыки. Москва,1982, 224с.

3.Музыкальная энциклопедия. VI часть. Издательство “Советская энциклопедия”. Москва, 1982, с. 380-396

Советская музыкальная литература.Вып.I,Издательство“Музыка”.Москва, 1972, 122с

## ФОРТЕПИАННОЕ ТВОРЧЕСТВО Д.ШОСТАКОВИЧА И ИСПОЛЬЗОВАНИЕ ЕГО МУЗЫКАЛЬНОМ ВОСПИТАНИИ ШКОЛЬНИКОВ ПУТИ, ВОЗМОЖНОСТИ

***Магеррамова Гюльтакин Сабир кызы***

***Резюме***

Статья посвяшена фортепианному творчеству выдающегося композитора, педагога, пианиста Д.Шостаковича, проанализированы пути и возможности использование его фортепианного творчества в музыкальном воспитании школьников.

Д. Шостакович опираясь на лучшие традиции национальной и мировой музыкальной культуры создал ценные произведения исскуства.

Использование фортепианной произведений композитора на уроках «Музыки» в общеобразовательных школах, положительно влияет на музыкальное воспитание школьников и повышает их музыкальную культуру.

## DMITRI SHOSTAKOVICH’S FORTEPIANO CREATIVITY, THE OPPORTUNITIES AND WAYS OF ITS USAGE IN STUDENTS’ MUSICAL EDUCATION

***Meherremova Gultekin Sabir***

***Summary***

The article is dedicated to the piano work of the prominent Russian composer, pedagogue, pianist and public figure D.Shostakovich and the study of the possibilities and ways of its use in the musical education of schoolchildren. Shostakovich has created valuable works of art in various genres based on the best traditions of both his people and world music culture.

The widespread use of the composer's piano music in the musical education of schoolchildren has a positive effect on the musical education of schoolchildren, enhances the musical culture.

***Rəyçi: Məhərrəmova Səma***
***Musiqi kafedrasının 26 oktyabr 2021-ci il tarixli iclasın 07 saylı protokolu***
***Daxil olma tarixi 10 noyabr 2021-ci il***

**UOT:781.**

## FİKRƏT ƏMİROVUN YARADICILIĞINDA XALQ TƏFƏKKÜRÜ ƏNƏNƏLƏRİ

***Məhərrəmova Səma Bəşir qızı***
***Gəncə Dövlət Universiteti***
Semameherremova74@mail.ru

**Xülasə:** *Görkəmli Azərbaycan bəstəkarı Fikrət Əmirov operanın, baletlərin, simfoniyaların, simfonik poemaların, simfonik muğamların, süitaların, kapriççionun, fortepiano üçün konsertlərin, pyeslərin, sonatanın, musiqili komediyaların, mahnı və romansların, dram tamaşalarına və kinofilmlərə musiqinin müəllifidir.*

*Janr rəngarəngliyinə baxmayaraq bəstəkarın yaradıcılıq irsində simfonik və musqi-səhnə əsərləri aparıcı yer tutur.*

*Milli təfəkkürə, milli musiqi ənənələrinə, milli zəminə sıx bağlılıq bəstəkarın yaradıcılıq üslubunun əsas cəhətlərindəndir.*

**Açar sözlər:** bəstəkar, yaradıcılıq, xalq, janr, mədəniyyət, ənənə
**Ключевые слова:** композитор, творчество, народ, жанр, культура, традиция